# Beynəlxalq təşkilatlar ya çox zəifləyib, ya da iflic vəziyyətinə düşüblər

## Gələcəyin dünyası ikitərəfli və regional əməkdaşlıqlara əsaslanacaq

**"Prezident İlham Əliyev "Euronews" TV kanalına müsahibəsi zamanı qlobal dəyişikliklər və yeni dünya nizamı barədə fikirlərini bildirib, hazırda dünyada yaşanan geosiyasi transformasiyaya və Cənubi Qafqazda vəziyyətlə bağlı məsələlərə toxunub. Uzun illər mövcud olmuş beynəlxalq qaydalar artıq keçmişdə qalıb və yeni nizam formalaşma mərhələsindədir. Bəs bu yeni qaydalar necə müəyyənləşdirilir? Onları kim müəyyənləşdirir? Dünya siyasəti hansı istiqamətdə gedir? Bu suallar hələ də açıq qalır və qlobal ictimaiyyətin əksəriyyəti bu suallara aydın cavab tapa bilmir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, burada aydın olan bir neçə əsas məqam var. Dövlətlərin daxili gücünə arxalanması zərurəti artıq hər bir ölkənin öz daxili siyasətinə və iqtisadi imkanlarına daha çox önəm verməsini labüd edir. Xarici yardımlara, hətta beynəlxalq hüququn qoruyacağına olan inam və etimad azalır. Çünki beynəlxalq hüquq çox vaxt selektiv şəkildə tətbiq olunur və ədalət prinsiplərinə əsaslanmır. "Azərbaycan bu reallığın ən bariz nümunələrindən biridir. Otuz il ərzində beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, real addımlar atılmadı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qaldı və işğalın qarşısını almaq üçün heç bir beynəlxalq mexanizm işləmədi. Azərbaycan yalnız öz daxili resurslarına güvənərək ərazi bütövlüyünü bərpa etdi və ədaləti təmin etdi. Bu təcrübə göstərdi ki, hər bir ölkənin gələcəyi öz əlindədir və heç bir beynəlxalq institut həmin ölkənin suverenliyini onun qədər qoruya bilməz", - deyə deputat əlavə edib.

P.Vəliyeva qeyd edib ki, mövcud qlobal böhranlar - Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə gərginliklər, Asiya və Afrikada siyasi çalxalanmalar beynəlxalq təşkilatların ya çox zəif, ya da tam iflic vəziyyətə düşdüyünü açıq şəkildə göstərir. BMT və ATƏT kimi qurumlar dünyada baş verən böhranların qarşısını almaqda tam uğursuzdurlar. Avropa İttifaqı və NATO yalnız öz maraqlarına uyğun məsələlərdə aktiv olurlar, digər hallarda isə ciddi təsir göstərmirlər. Beynəlxalq insan haqları təşkilatları isə bəzi hallarda siyasi təsir aləti kimi istifadə olunur. Nəticə etibarilə, dövlətlər çoxtərəfli institutlardan daha çox ikitərəfli və regional əməkdaşlıqlara üstünlük verməyə başlayırlar, çünki bu təşkilatlar tez-tez siyasi



və iqtisadi maraqlara xidmət edir, obyektiv və neytral mövqedən çıxış edə bilmirlər.

Deputat vurğulayıb ki, hazırkı proseslər dünyanın hələlik böyük transformasiyanın ilkin mərhələsində olduğunu göstərir: "Bir çox məsələlər gələcək hadisələrin gedişatından asılı olacaq, lakin bəzi tendensiyalar artıq aydın müşahidə olunur. Dövlətlər beynəlxalq qurumlardan daha çox regional və ikitərəfli əməkdaşlıqlara üstünlük verəcək. Qlobal sabitlik uzun müddət bərpa olunmayacaq və dövlətlər öz təhlükəsizliklərini özləri təmin etməli olacaqlar. Geosiyasi bloklar zəifləyəcək və daha çevik, maraq əsaslı koalisiyalar yaranacaq. İqtisadi və texnoloji müstəqillik əsas prioritet olacaq. Azərbaycan bu dəyişən dünya nizamında sabit, güclü və müstəqil siyasət yürüdərək öz milli maraqlarını qorumağa davam edəcək. Biz artıq daxili resurslarımıza güvənərək uğur qazandıq və gələcəkdə də bu strategiya ilə irəliləyəcəyik. Biz sübut etdik ki, müstəqil siyasət və güclü daxili resurslar ölkənin suverenliyini təmin edən əsas faktorlardır".

Deputat əlavə edib ki, beynəlxalq təşkilatlardan real nəticə gözləmək mümkün deyil. Gələcəyin dünyası daha çox dövlətlərarası ikitərəfli və regional əməkdaşlıqlara əsaslanacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 18 mart (№59).- S.7.